**UOT: 657.6**

***Kamran Maarif oğlu ABBASOV***
***Azərbaycan Kooperasiya Universitetinin dissertantı,***
***abbasov.kamran.m@gmail.com***

# İQTİSADİ PROSESLƏRDƏ ŞƏFFAFLIĞIN ARTIRILMASINDA AUDİTDƏN SƏMƏRƏLİ İSTİFADƏDƏ DÜNYA TƏCRÜBƏSİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – iqtisadi proseslərdə şəffaflığın artırılmasında auditdən səmərəli istifadədə dünya təcrübəsinin tədqiqi və ölkəmizdə istifadəsinin təşkili üzrə araşdırmaların aparılmasından ibarətdir.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində təhlil, sintez, qruplaşdırma, ümumiləşdirmə və s. metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Azərbaycanda iqtisadi inkişaf proseslərində şəffalığın gücləndirilməsində və maliyyə hesabatlarının dürüstlüyünün təmin olunmasında daha optimal yanaşmaların formalaşdırılması, meyarların müəyyənləşdirilməsi ilə bağlıdır.

**Tədqiqatın nəticələri** – Azərbaycanda iqtisadi inkişaf proseslərinin daha intensiv fazaya keçdiyi indiki şəraitdə şəffaflığın təmin edilməsi üçün auditin rolunun artırılması üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – ilk növbədə, qlobal mənfi təsirlərin artdığı bir dövrdə iqtisadi inkişaf proseslərində olan ehtiyatların üzə çıxarılması və daha məhsuldar mexanizmlərin müəyyənləşdirilməsi, bu proseslərdə şəffaflığın gücləndirilməsi hesabına iqtisadi səmərəliliyin artırılması istiqamətində təkmilləşdirilmiş iqtisadi mexanizmlərin və alətlərin müəyyənləşdirilməsindən ibarətdir.

***Açar sözlər: iqtisadi proseslər, şəffaflıq, audit, auditdən istifadədə dünya təcrübəsi, auditin inkişaf problemləri, auditin inkişaf perspektivləri.***

## *Giriş*

İqtisadi proseslərin səmərəli təşkil olunması və daha optimal, həm də işlək mexanizmlərin hazırlanması, maliyyə və mühasibatlıq sənədlərinin dürüstlüyü müasir dövrdə kifayət qədər aktuallığı ilə diqqət mərkəzində olan məsələlərdəndir. Burada başlıca yanaşma reallaşdırılan iqtisadi fəaliyyətin səmərəliliyinin təmin olunması, planlaşdırılan işlərin həyata keçirilməsi üçün zəruri olan maliyyə resurslarından istifadənin daha etibarlı nəzarət sisteminin formalaşdırılmasından ibarətdir. Həmin problemlərin və məsələlərin həllində auditin rolu kifayət qədər yüksəkdir və dünya təcrübəsində auditdən bu istiqamətdə səmərəli istifadəyə dair təcrübə formalaşmışdır. Qeyd edək ki, bu məsələlər ən qədim dövrlərdə belə həmin dövrün xüsusiyyətlərinə uyğun olaraq aktual olmuşdur. Yəni, audit özünün qədimliyi ilə fərqlənir və əgər auditin yaranma, inkişaf tarixinə diqqət yetirsək bunun şahidi ola bilərik. Hələ orta əsrlərdə Avropada savadlı insanlar az olduğundan vəzifəli şəxslərin hesabatlarına qulaq asanları və nəzarət edənləri auditor adlandırırdılar, başqa sözlə, auditor bu şəxsləri dələduzlardan və aldatma hallarından qoruyurdu. Ümumilikdə auditin vətəni Britaniya hesab olunur və IX əsrdə burada təsərrüfat işlərində mühasibatlıq elementləri formalaşmışdır. XII əsrin əvvəllərində isə Britaniya və Şotlandiyada xəzinədarlığın təşkilində audit haqqında informasiyalar vardır, XIV əsrin əvvəllərində isə artıq auditorlar fəaliyyət göstərirdilər. 1285-ci ildə Böyük Britaniyada auditor fəaliyyətini tənzimləyən ilk qanunverici akt təsdiq olunmuşdur. Bu qanunla auditorlar inanılmış şəxs olmalı və müstəqil şəkildə mühasibat yazılışlarını, hesabatlarını yoxlamağa səlahiyyəti var idi [5]. XVI əsrdə isə geniş şəkildə auditor termini işlədilirdi və Britaniyada daha çox yayılmışdır. XVIII əsrdə auditorlar mühasibatlıq hesabatlarını yoxlayırdılar və iflasa düşmüş müəssisələrin işləri ilə məşğul idilər, digər tərəfdən onlar sahibkarların maraqlarını təmin etmək üçün çalışırdılar. Artıq XIX əsrin əvvəllərində peşəkar auditorlar təşkilatları mövcud idi.

1862-ci ildə isə İngiltərədə "İcbari audit haqqında" Qanun qəbul olunmuşdur. XIX əsrdə auditorlar müxtəlif iqtisadi fəaliyyət sahələrini, mühasibatlıq kitablarını, kreditorlara aid olan məsələləri, şirkət sahiblərinin səhmləri ilə bağlı hesabatları təftiş edir, yoxlayır və qiymətləndirmələr aparırdılar [6]. XX əsrdən başlayaraq audit iqtisadiyyatın bütün sahələrində geniş formada yayılmışdır və XXI əsrin əvvəllərindən isə yüksək texnologiyaların inkişafı hesabına audit dövlət maliyyə nəzarəti sisteminin strateji tərkib hissələrindən birinə çevrilmişdir.

**Müasir dövrdə audit sisteminin formalaşması və inkişafının mühüm aspektləri**

Müasir dövrdə audit sisteminin formalaşdırılması və inkişaf etdirilməsi, audit institutunun vacib atributlarının yaradılması istiqamətində məqsədli tədbirlər görülür və bu mexanizmin maliyyə nəzarəti sistemində rolunun artırılması, iqtisadi proseslərdə şəffaflığın yüksəldilməsində daha çox səmərə verməsi problemləri xüsusilə diqqət mərkəzindədir. Məsələ burasındadır ki, bir neçə yüz il bundan əvvəl olduğu kimi, hazırkı qeyri-sabit qlobal şəraitdə və iqtisadi proseslərin üzərində qlobal təzyiqlərin artdığı bir dövrdə də yenə yüzlərlə banklar, kompaniyalar, maliyyə və investisiya təşkilatları iflic olmuş, bağlanmış, yaxud ciddi maliyyə çətinlikləri ilə üzləşmişlər. Bu proseslər dünya maliyyə böhranından sonra daha geniş xarakter almış və hazırda COVİD-19 pandemiyasının təsirini də buraya əlavə etsək auditin rolu xeyli aktual olaraq artmaqdadır. Keyfiyyətli audit xidməti dövlət və özəl sektor müəssisələrinin, o cümlədən maliyyə-investisiya resurslarının hərəkətinə məsul strukturların fəaliyyətində olan problemlərin vaxtında aşkarlanmasında, təhlil olunmasında və müvafiq nəticələrin çıxarılmasında önəmli rol oynayır. Audit problemin alt qatlarını üzə çıxarır, qanun pozuntularını aşkarlayır və yeni ali qərarların qəbul olunması, idarəetmə və nəzarət funksiyalarının təkmilləşdirilməsi, təşkilatın və ya müəssisənin fəaliyyət strategiyasının yenilənməsi üçün əsaslar formalaşdırır və həlli yollarını göstərir.

Qeyd edək ki, beynəlxalq səviyyədə audit institutunun inkişaf etdirilməsi üçün müəyyən təşkilatlanma prosesləri də diqqət çəkir və "Beynəlxalq auditorlar institutu" Assosiasiyasının fəaliyyətində hazırkı qlobal şəraitdə audit institutunun daha da səmərəli təşkili ilə bağlı məsələlərə baxılır, ölkələrarası əlaqələrdə audit mexanizminin təkmilləşdirilməsi istiqamətində tədbirlər görülür, regional təşkilatlar yaradılır, beynəlxalq konfranslar keçirilir və s. "Beynəlxalq auditorlar institutu" Assosiasiyası 100-dən çox üzv ölkəni özündə birləşdirir və onun sıralarında 180 min nəfər auditor fəaliyyət göstərir. Məqsəd auditor yoxlamaları və fəaliyyəti sahəsində beynəlxalq standartların və meyarların daha da təkmilləşdirilməsindən ibarətdir [11]. Maraqlıdır ki, Azərbaycan Respublikası Auditorlar Palatası da bu təşkilatla sıx əməkdaşlıq edir və respublikamızda da analoji ictimai qurum yaradılmışdır, bunun sayəsində beynəlxalq və regional əhəmiyyətli tədbirlərin keçirilməsi ənənə halını almışdır və bütün bunlar ölkəmizdə fəaliyyət göstərən auditorların peşəkarlıq səviyyəsinin yüksəldilməsində ciddi önəm kəsb edir. Bundan əlavə, auditor institutunun inkişaf etdirilməsi və ümumilikdə nəzarət sisteminin təkmilləşdirilməsi proseslərində dünyanın aparıcı ölkələrində xeyli təcrübə toplanmışdır və həmin təcrübənin sistemli şəkildə öyrənilməsi, araşdırılması, təhlillər aparılması və hər bir ölkənin öz iqtisadi inkişaf, makroiqtisadi və makromaliyyə hədəflərinə uyğun şəkildə təmin edilməsi, bu proseslərdə auditin rolundan səmərəli istifadə olunması vacib şərtlərdəndir. Belə ki, auditin təşkili və tətbiqi ilə bağlı beynəlxalq təcrübənin adaptivlik məsələsi və ölkədə tətbiq olunması xüsusi yanaşmaları şərtləndirir [3].

Ölkənin maliyyə sisteminin işləkliyi və dövlət büdcəsi xərclərinin nəzarət formasının səmərəliliyi vacib şərtlərdəndir. Belə ki, maliyyə axınlarının şəffaflığının təmin olunması və dövlət strukturları ilə cəmiyyət arasında qarşılıqlı etimadın yaradılmasında peşəkar audit yoxlamasının böyük əhəmiyyəti vardır. Audit həm də dövlət səviyyəsində və iri təşkilatlar, iqtisadi subyektlər çərçivəsində daha obyektiv və düzgün qərarların verilməsinə ciddi arqumentlər hazırlayır və əsaslar verir. Hər bir ölkə özünün müəyyən xüsusiyyətləri ilə fərqlənən dövlət maliyyə nəzarəti sistemini yaradır. Məsələn, Böyük Britaniya, Avstraliya, Hindistan, Kanada, Danimarka, Misir və İrlandiyada dövlət maliyyə nəzarəti funksiyasını xüsusi təyin olunmuş şəxslər yerinə yetirir. Əksər ölkələrdə isə bu funksiyaları hesablama palataları və hesablama məhkəmələri həyata keçirirlər [13]. Buna görə də beynəlxalq səviyyədə maliyyə nəzarəti funksiyalarının müxtəlifliyindən və fərqlərindən

asılı olmayaraq, bütün hallarda müstəqil və qərəzsiz audit institutuna, obyektiv audit yoxlamasına ehtiyac vardır. Dövlət auditi peşəkar audit fəaliyyətinin əsas istiqamətlərindən biridir və burada əsas hədəf milli sərvətlərdən, resurslardan və maliyyə vəsaitlərindən səmərəli, həm də təyinatı üzrə istifadənin təmin olunmasıdır. Səmərəli audit yoxlaması dedikdə isə, ilk növbədə aparılan yoxlamaların məhsuldarlığı, yoxlanılan sahədə olan əsas problemlərin və nöqsanların aşkarlanması, onların səbəblərinin təhlil olunması, bununla da növbəti mərhələdə yoxlama subyektinin bu problemləri həll etməklə öz fəaliyyətini daha düzgün istiqamətə yönəltməsi, bəlli strategiyanın nöqsanlarının düzəldilməsi, heyətin peşəkarlığının artırılması, maliyyə və investisiya resurslarına, mal və qiymətlilərə, material ehtiyatlarına münasibətdə şəffaflığın qorunması, israfçılığın aradan qaldırılması, qənaətcil rejimin formalaşdırılması və s. bu kimi yanaşmalar, meyarlar, prinsiplər əsas götürülməlidir. Eyni zamanda, audit yoxlaması hesabına maliyyə resurslarından təyinatı və mövcud qanunvericiliyə uyğun şəkildə istifadə olunması üzrə müqayisələrin aparılması, boşluqların üzə çıxarılması və adekvat qərarların qəbul edilməsi vacibdir [4].

Beynəlxalq səviyyədə auditin səmərəli təşkili və iqtisadi proseslərdə şəffaflığın artırılmasında istifadəsi nöqteyi-nəzərindən bir çox mühüm hədəflər və məqsədlər diqqət çəkirlər. Bunların sırasında maliyyə resurslarından istifadədə israfçılıq və qayda pozuntuları faktlarının aşkarlanması və sübut olunması, məqsədli layihələrdə və dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlərdən səmərəli istifadə edilməsi hesabına qarşıya qoyulmuş vəzifənin yerinə yetirilməsi, maliyyə hesabatlarında və mühasibatlıq sənədlərində təhrif hallarının aşkarlanması, yönəldilmiş investisiyaların sosial-iqtisadi səmərəlilik səviyyəsinin müəyyənləşdirilməsi, dövlət kapital qoyuluşlarının gözlənilən nəticələrinin obyektiv qiymətləndirilməsi və s. daha çox ciddi önəm kəsb edirlər. Bu qeyd olunanların milli audit institutunun formalaşdırılması və inkişafında ardıcıl şəkildə nəzərə alınması və dəyərləndirilməsi ölkədə audit sisteminin inkişafının sürətləndirilməsində, audit yoxlamalarının keyfiyyətinin və məhsuldarlığının artırılmasında önəmli rol oynaya bilər [9]. Digər tərəfdən, audit mexanizmlərinin maksimum səmərəli təşkil edilməsi və yoxlamaların sistemli şəkildə aparılması, həmin proseslərdə tətbiq olunan təhlil və yoxlama metodlarının adekvatlığından, məhsuldarlığından və ümumilikdə səmərəliliyindən bilavasitə asılıdır. Belə ki, audit yoxlaması üçün götürülən obyektlərin müxtəlifliyi, fəaliyyət istiqamətlərinin mürəkkəbliyi, spesifik xarakter daşıyan halların olması, müəyyən çətinliklərin əsl səbəblərinin araşdırılmasına uzunmüddətli vaxtın getməsi, auditorların peşəkarlıq səviyyəsinin hansı səviyyədə olması və s. amillər olduqca mühüm hesab olunur. Auditin səmərəlilik göstəriciləri əsas etibarilə yoxlama və təhlil predmeti kimi qarşıya qoyulmuş obyektin və ya sahənin fəaliyyətinin nöqsanlı və durğunluq şəraitindən çıxarılmasına imkan verən təhlillərin aparılması, ekspertizaların keçirilməsi, qiymətləndirmələr hesabına ciddi arqumentlərin formalaşdırılması və yeni hədəflərə yönəlmiş qərarların verilməsi üçün əsasların sistemləşdirilməsi və s. bu kimi meyarlarla, göstəricilərlə daha çox əlaqəlidir. Bu amillər baxımından beynəlxalq təcrübədə auditin səmərəlilik göstəricilərinin seçiminə və təkmilləşdirilməsinə daha çox diqqət ayrılır [14]. Digər tərəfdən, auditin səmərəli təşkil olunması və onun qarşısına qoyulan vəzifələrin yerinə yetirilməsində daha optimal yoxlama metodlarının hazırlanması və tətbiq edilməsi vacib şərtlərdəndir. Burada əsas yanaşma kimi auditin verə biləcəyi töhfələr və yoxlama obyektinin auditin nəticələrindən istifadə etməklə, öz fəaliyyətində təkmilləşdirmələr aparması, nöqsanların aradan qaldırılması və s. bu kimi istiqamətlərdə daha məhsuldar fəaliyyət göstərməsi üçün qərarların verilməsi, onların icrasına və maliyyələşdirilməsi üçün ayrılan vəsaitlərin təyinatı üzrə istifadəsinə nəzarət sisteminin faydalı olmasıdır. Əks təqdirdə audit yoxlamasının nəticələri o qədər də səmərəli olmaya bilər və həyata keçirilən tədbirlər adi səviyyədən irəli gedə bilməz [7]. Eyni zamanda, audit qərəzsiz olmalı və obyektivliyi maksimum şəkildə qorumalıdır, lakin beynəlxalq ekspertlərin və audit institutunun səmərəliliyini araşdıran tədqiqatçıların ümumi fikirlərindən yanaşsaq, dünyanın əksər ölkələrində, xüsusilə iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrdə audit institutu demək olar ki, müstəqil fəaliyyət göstərməkdə çətinlik çəkir və öz fəaliyyətində əsas etibarilə öz ölkələrinin dövlətlərinin iqtisadi siyasətinə uyğun şəkildə audit yoxlamalarının təşkilinə üstünlük verirlər. Yəni burada auditin tam olaraq səmərəsiz olmasından söhbət getmir, başqa sözlə audit

institutları və auditorlar maksimum şəffaf maliyyə sənədləşdirməsi və mühasibat uçotunun şəffaflığı şəraitində fəaliyyət göstərmirlər. Belə ki, həmin ölkələrin çoxunda korrupsiya halları və “kölgə iqtisadiyyatı” elementləri mövcud olduğundan, auditin önəmli şəkildə obyektivlik göstərməsi heç də real görünmür. Bu problemlər avtoritar rejimli ölkələr üçün daha kəskin xarakter daşıyır və bu qəbildən olan ölkələrdə milli sərvətdən, iqtisadi resurslardan və maliyyə vəsaitlərindən istifadənin mənbələrinin göstərilməməsi, açıqlanmaması, şəffaflıq prinsipinə əməl olunmaması daha çox xarakterikdir [15]. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə isə iri və müstəqil audit şirkətlərinin olması bir az fərqli mənzərə yaradır, yəni müəyyən mənada auditin sərbəstliyi, obyektivliyi atmosferi vardır. Həmin ölkələrdə audit təşkilatları arasında həm də ciddi rəqabət mövcuddur və bunun sayəsində audit yoxlamalarının prinsip və meyarlarının təkmilləşdirilməsi, qərəzsiz olması və peşəkarlıq səviyyəsinin yüksəklikdə saxlanılması xüsusi diqqət mərkəzindədir. ABŞ-da audit fəaliyyətinin təşkilinə və auditin güclü nəzarət mexanizmi olmasına ciddi önəm verilir. Bu ölkədə auditin inkişaf prosesləri əsasən XIX əsrin sonlarında başlamışdır və XX əsrin əvvəllərində isə artıq audit fəaliyyəti modeli formalaşmışdır. XX əsrin birinci yarısında ABŞ-da maliyyə resurslarına və xüsusilə qiymətli kağızlar bazarına nəzarət mexanizmləri formalaşdırılmış, qanunlar qəbul olunmuşdur. Məsələn, 1933-cü ildə “Qiymətli kağızlar haqqında” Qanun və 1934-cü ildə isə “Birjalar haqqında” Qanun qəbul olunmuşdur və bu qanunlarda firma və kompaniyalar üçün maliyyə hesabatlarının olması məcburi prosedur kimi öz təsdiqini tapmışdır. ABŞ-da auditor fəaliyyəti ilə federal səviyyədə qanunvericilik orqanlarının, məsələn, Konqresin nəzdində olan qurum - Uçot üzrə baş nəzarət xidməti fəaliyyət göstərir. Bundan başqa vergi orqanlarında və digər xidmət sahələrində də nəzarət funksiyaları mövcuddur və bütün bunlar audit institutunun çoxşaxəliliyindən xəbər verir [12]. Ümumiyyətlə, ABŞ-da XX əsrin 70-80-ci illərindən başlayaraq audit institutunun inkişafına daha çox önəm verilmişdir və ölkədə 45 min auditor firması vardır və həmin şirkətlərdə işləyənlərin ümumi sayı 100 mindən çoxdur. Bu audit şirkətlərinin fəaliyyətini 4 qrupda ümumiləşdirmək olar: 1) audit xidmətləri bazarında fəaliyyət göstərən “böyük altılıq” nəhəng auditor şirkətləri; 2) beynəlxalq təcrübəyə malik milli auditor firmaları; 3) yerli iri və regional auditor firmaları və 4) kiçik yerli auditor firmaları [10]. ABŞ-da auditorlar öz fəaliyyətlərində üç ixtisas üzrə sertifikatlaşdırılırlar: 1) auditor - mühasib; 2) daxili auditor və 3) informasiya sistemləri auditoru. Böyük Britaniyada isə müasir dövrdə audit sistemi əsas etibarilə uzun dövr ərzində toplanmış təcrübə üzrə formalaşdırılmışdır və audit dövlət, həm də özəl qurumlar üçün icbari xarakter daşıyır. Banklar isə mütləq şəkildə auditdən keçməlidirlər və auditin nəticələri dərc olunmalıdır. Hesab edirik ki, Böyük Britaniyada auditorlar daha çox müstəqilliyi ilə digər ölkələrdə fəaliyyət göstərən auditorlardan fərqlənirlər. Son illərdə iqtisadi cəhətdən yüksək inkişaf tempi nümayiş etdirən Çində dövlət səviyyəsində audit sisteminin inkişafına xüsusi önəm verilir. Bu ölkənin iqtisadi inkişaf proseslərində audit yoxlamaları ildən-ilə genişlənməkdədir. Maraqlıdır ki, Çində diplomlu ictimai mühasib və auditorlardan daha çox istifadə edilir və ölkədə hazırda 50 mindən çox auditor təşkilatı mövcuddur və həmin auditor firmalarında 70 mindən çox auditorlar fəaliyyət göstərirlər [8].

Son illərdə dünyada qlobal problemlərin artmasında və ilk növbədə maliyyə-investisiya resurslarının hərəkətində olan çətinliklərdən yanaşsaq, maliyyə axınlarının daha güclü nəzarət mexanizmlərinə və audit metodlarına tələbat artmaqdadır. Bu isə yaxın perspektivdə audit sahəsində rəqabətin daha da güclənəcəyini və auditor fəaliyyətinin əhəmiyyətli səviyyədə təkmilləşdirilməsinə ehtiyacın yaranacağını proqnozlaşdırmağa imkan verir.

**Azərbaycanda iqtisadi proseslərdə auditdən səmərəli istifadənin təşkili problemləri və istiqamətləri**

Azərbaycan regionun və dünyanın dinamik inkişaf edən ölkələrindən biri kimi bütün istiqamətlərdə milli dövlət atributlarının formalaşdırılmasına, o cümlədən audit sisteminin davamlı şəkildə inkişaf etdirilməsinə səy göstərməkdədir. 2000-ci illərin əvvəllərindən başlayaraq, ölkəyə neft gəlirlərinin iri axınının olması, dövlət büdcəsinin gəlirlərinin və xərclərinin dəfələrlə artması, dövlət investisiya yatırımlarının və əsaslı vəsait qoyuluşlarının həcminin yüksəlməsi, ayrı-ayrı dövlət əhəmiyyətli layihələrin həyata keçirilməsi proseslərində qanunvericiliyə əməl edilməsi, istifadə

olunan maliyyə resurslarının təyinatı üzrə olub-olmamasının obyektiv şəkildə yoxlanılması, tələb olunan təhlillərin aparılması tədbirləri daha geniş xarakter almışdır. Dövlət qurumları, müəssisə və təşkilatları vasitəsilə hər il milyardlarla vəsait tenderlər vasitəsilə istifadəyə yönəldilir və bu tenderlərin şəffaflıq problemlərinin olması heç də sirr deyildir. Buna görə də ölkədə müstəqil Auditorlar Palatasının və bundan əlavə Milli Məclisə hesabat verən Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyət göstərməsi bu istiqamətdə zəruri tədbirlərin görülməsi üçün planlı şəkildə görülən işlərdir. Maliyyə resurslarının təyinatı üzrə istifadə edilməməsi və maliyyə hesabatlarında obyektivlikdən kənarlaşmalar "kölgə iqtisadiyyatı"nın inkişafına gətirib çıxarmaqla bərabər, həm də maliyyə xidmətləri bazarının inkişafına xələl gətirir [1]. Digər tərəfdən, Azərbaycanda dövlət tərəfindən ölkə regionlarının sosial-iqtisadi problemlərinin həll olunması, infrastruktur layihələrinin həyata keçirilməsi, regionlarda həyat şəraitinin yaxşılaşdırılması, rəqabətqabiliyyətli müəssisələr şəbəkəsinin formalaşdırılması, yeni iş yerlərinin yaradılması, sahibkarlara maliyyə yardımlarının göMuradstərilməsi, onların ucuz kredit resurslarına çıxışlarının təmin edilməsi məqsədilə maliyyə resursları ayrılır, dotasiyalar, subsidiyalar verilir, güzəştli kənd təsərrüfatı texnikası və gübrəsi ayrılır.

Bundan əlavə, məcburi köçkünlərin və məcburi qaçqınların həyat şəraitinin yaxşılaşdırılması məqsədilə ölkənin mərkəzi şəhərlərində və regionlarında yaşayış massivlərinin-şəhərciklərin salınması, qəsəbələrin və fərdi evlərin tikilməsi, sosial obyektlərin ərsəyə gətirilməsi üçün xeyli vəsait xərclənmişdir və bu istiqamətdəki maliyyə axınlarının nəzarət mexanizmlərinin ideallığı heç də istənilən səviyyədə olmamışdır. Ümumiyyətlə, son beş il ərzində, xüsusilə 2015-ci ildə milli valyutanın - manatın ikiqat devalvasiyaya uğramasından sonrakı şəraitdə maliyyə vəsaitlərindən təyinatı üzrə istifadə məsələləri xeyli aktuallaşmışdır. Bir sıra iri ranqli nazirlər, komitə və agentlik sədrləri, icra strukturlarının rəhbərləri vəzifələrindən kənarlaşdırılmış, korrupsiya hallarına yol verdikləri üçün cinayət işi açılmış, məhkəmələr keçirilmiş və həbslər olmuşdur, hazırda bir sıra işlər üzrə istintaq və məhkəmə işləri davam etməkdədir. Bu hallar ölkəmizin iqtisadi inkişafına və tərəqqisinə kölgə salan amillərdəndir və onların qarşısının alınmasında obyektiv və güclü audit sisteminin olması tələb olunur.

Bunlarla bərabər, yaranmış situasiyadan irəli gələn vəzifələrin reallaşdırılması, milli iqtisadiyyat sahələrinin potensialından səmərəli istifadə edilməsi, ölkədə aparılan iqtisadi, struktur və institusional islahatların dərinləşdirilməsi, ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, onun neftdən asılılığının aşağı salınması məqsədilə yeni strateji hədəflər işlənib hazırlanmış və hazırda onların əksəriyyəti üzrə icra prosesləri intensivləşməkdədir. Maliyyə xidmətləri bazarının inkişafının sürətləndirilməsi, dövlət büdcəsi xərclərindən istifadənin şəffaflığının təmin olunması, ölkə üzrə maliyyə axınlarının daha səmərəli izlənilməsi və arzuolunmaz halların baş verməməsi üçün vaxtında preventiv tədbirlərin görülməsi böyük önəm kəsb edir və hesab edirik ki, bu proseslərdə auditin rolu daha çox artırılmalı və gücləndirilməlidir. Bu istiqamətdə strateji yanaşmalar və konkret hədəflər ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə verilmişdir [2]. Yaxın və uzaq perspektivdə maliyyə xidmətləri bazarının şəffaflığının yüksəldilməsi, xüsusilə kapital bazarının inkişaf etdirilməsi, qiymətli kağızlar institutunun böyük ölçüdə formalaşdırılması və işlək hala gətirilməsi, maliyyə xidmətlərinin əlçatanlığının təmin edilməsi, ölkədə maliyyə resurslarından istifadə olunmasında, maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin mühasibatlıq sənədlərində obyektiv göstərilməsində və maliyyə hesabatlarının şəffaflığının artırılmasında tələb olunan vəzifələrin və tədbirlərin sistemli və ardıcıl şəkildə həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bütün bu proseslərdə audit xidməti və bütövlükdə audit sistemi önəmli funksiyaları yerinə yetirmək iqtidarındadır.

### *Nəticə*

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, yaxın dövrdə audit dünya iqtisadi proseslərində, o cümlədən ölkəmizdə həyata keçirilən sistemli və davamlı iqtisadi islahatlarda tələb olunan və səmərəli bir mexanizm kimi diqqət mərkəzində qalacaqdır. Bu yanaşmanın və qənaətin izahını şərt-

ləndirən bir qrup amilləri və məsələləri ümumiləşdirmişik:

- iqtisadi inkişaf proseslərində və maliyyə axınlarının hərəkətində daha səmərəli nəzarət mexanizmlərinin müəyyənləşdirilməsi, tədbirlərin görülməsi üçün obyektiv və dürüst informasiya bazasının formalaşdırılmasında auditin rolu xeyli artmaqdadır;
- audit yoxlamaları vasitəsilə müəyyən fəaliyyət sahəsində və subyektində real vəziyyətin qiymətləndirilməsi, nöqsanların aşkarlanması və üzə çıxarılması mümkündür və bütün bunlar sonrakı mərhələlərdə adekvat tədbirlərin görülməsi və qərarların verilməsi üçün ciddi arqumentlər kimi baxılır;
- audit mexanizmi mühasibat uçotunun düzgün aparılmasında və maliyyə hesabatlarının dürüstlüyünün təmin edilməsində ciddi funksiyaları yerinə yetirir;
- iqtisadiyyat sahələrinin özünüinkişafetmə potensialının açıqlanmasında və hərəkətə gətirilməsində audit yoxlamalarının səmərəsi kifayət qədərdir və məhz bu qəbildən olan yoxlamaların nəticəsi olaraq geniş həcmli tədbirlərin görülməsi, fəaliyyət strategiyalarının təkmilləşdirilməsi və iqtisadi səmərənin artırılması mümkünləşir və s.

## ƏDƏBİYYAT


1. Ataşov, B.X. Maliyyə bazarları. / B.X.Ataşov - Bakı, “Kooperasiya nəşriyyatı”, 2016 - 456 s.
2. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016. - 59 s.
3. Асташова, Н.Н. Мировой опыт развития государственного финансового контроля при внедрении результативного бюджетирования // Математические и инструментальные методы экономики, 2010, 12(73). -с.373-379.
4. Богданович, И.С., Лукьянова, Ю.С. Сравнительная характеристика аудита эффективности использования бюджетных средств в России и за рубежом // Вестник Псковского государственного университета. Серия: Экономика. Право. Управление. 2017. №5.- ъ.91-100.
5. История возникновения аудита и его развитие в разных странах мира. https://businessideas.com.ua/manage-finances/istoriya-audita
6. Кириленко, Ю.В., Зданович, Е.С., Лемеш, В.Н. БГЭУ (Минск) История возникновения и развития аудита. http://bseu.by:8080/bitstream/edoc/75786/1/Kirilenko_Yu.V._110_112.pdf.].
7. Коваленко, С.Н. Аудит эффективности: современные проблемы и пути их решения / Коваленко, С.Н. Трунова, Е.А. // Научные новости. Сер. Экономика. Информатика. - 2017. - № 2. - С. 68-74.
8. Кучеров, А. В. Особенности аудита за рубежом / А. В. Кучеров, Я.М.Козичева. - Текст: непосредственный // Молодой ученый. - 2013. - № 5 (52). - С. 339-343.
9. Лын, Я.И. Международный опыт и национальная практика проведения аудита эффективности использования бюджетных средств // Научный вестник: финансы, банки, инвестиции. 2013. №3 (22).- с.55-61.
10. Никольская, Ю.П., Аудит. Часть 1.. М.: Московский государственный университет печати. http://www.hi-edu.ru/x-books/xbook086/01/part-002.htm.
11. Общая информация. Ассоциация «Институт внутренних аудиторов». https://www.iia-ru.ru/about/info/
12. Румянцева, Е.Е., Ванстейн, М. Развитие аудиторской деятельности в США: проблемы, поиски, решения // Экономика. Налоги. Право. 2012. №1.
13. Сафиуллин, Т.Р. Зарубежный опыт применения аудита эффективности в государственном финансовом контроле. https://doicode.ru/doifile/lj/45/lj-12-2018-70.pdf
14. Сидорович, К.Ю., Лемеш, В.Н.БГЭУ (Минск) Аудит эффективности: особенности и международный опыт.

http://www.bseu.by:8080/bitstream/edoc/75844/1/Sidorovich_K.Yu._129_131.pdf .
15. Шакирова, Г.А., Ситенко, Д.А., Васа, Л. Аудит эффективности использования бюджетных средств в процессе проведения государственного аудита. // Vestnik KarQU. 2019. https://articlekz.com/article/29524.

***Камран Маариф оглы Аббасов***
***диссертант Азербайджанского***
***Университета Кооперации***

## Мировой опыт эффективного использования аудита в повышении прозрачности экономических процессов

***Резюме***

**Цель исследования** - в статье рассматривается мировой опыт эффективного использования аудита в повышении прозрачности экономических процессов в соответствии с современными вызовами.

**Методология исследования** - использован ряд экономических методов, в том числе, анализ, синтез, обобщение и др.

**Практическое значение исследования** - заключается в обеспечении усиления роли аудита в углублении прозрачности проводимых экономических реформ, структурных изменений и способствует повышению применяемых экономических механизмов в соответствии с международным опытом.

**Результаты исследования** - подготовлен ряд предложений и рекомендаций по усилению роли аудита в повышении прозрачности экономике, усилении контроля за достоверностью ведения бухгалтерского учёта и в подготовке финансовых отчётов исходя из мирового опыта.

**Оригинальность и научная новизна исследования** - заключается в формировании более продуктивных механизмов и подходов к процессам экономического развития в условиях роста негативного глобального влияния и раскрытия резервов для развития экономики страны, создания более усовершенствованных экономических механизмов и инструментов в контексте мирового опыта.

***Ключевые слова: экономические процессы, прозрачность, аудит, мировой опыт использования аудита, проблемы развития аудита, перспективы развития аудита.***

***Kamran Maarif Abbasov***
***doctoral student of***
***Azerbaijan Cooperation University***

## World experience of effective use of auditing in increasing transparency of economic processes

***Summary***

**The purpose of the study** - the article discusses the world experience of effective use of auditing in increasing the transparency of economic processes in accordance with modern challenges.

**Research methodology** - a number of economic methods, including analysis, synthesis, generalization, etc.

**The practical significance of the study-** is to strengthen the role of auditing in enhancing the transparency of ongoing economic reforms, structural changes and to enhance the economic mechanisms applied in accordance with international experience.

**Results of the research -** prepared a number of proposals and recommendations to strengthen the role of audit in increasing transparency in the economy, strengthening control over the reliability of accounting and in the preparation of financial reports based on world experience.

**Originality and scientific novelty of the research -** consists of the formation of more productive mechanisms and approaches to economic development processes in the context of growing negative global influence and the disclosure of reserves for the development of the country's economy, the creation of more improved economic mechanisms and instruments in the context of world experience.

***Key words: economic processes, transparency, auditing, global audit experience, audit development problems, audit development perspectives***.